# Müasir Azərbaycan dövlətinin banisi

**Milli dövlətçiliyin qorunması və möhkəmləndirilməsi təkcə tarixi şans və milli iradə deyil, həm də lider amili ilə şərtlənir. Hər bir ölkənin taleyi ona rəhbərlik edən liderin siyasi iradəsindən çox asılıdır. Ümummilli liderimiz Heydər Əliyev məhz belə fenomenal liderlərdəndir. Ötən əsrin 60-cı illərinin sonunda ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyə irəli çəkilməsi xalqda özünün zəngin dövlətçilik ənənələri əsasında gələcək müstəqilliyinə etibarlı zəmin formalaşdırmaq şansı yaratmışdır.**

Dövlət müstəqilliyimizin bərpasından ötən illəri təhlil edərkən bir daha əminliklə söyləmək olar ki, həqiqətən də tarixin millətə verdiyi şansı yalnız görkəmli tarixi şəxsiyyərlərin iştirakı ilə reallaşdırmaq mümkündür. Belə tarixi şəxsiyyətlər nadir hallarda yetişir və belə dühalar özləri tarix yaradırlar. Azərbaycan xalqının böyük və dahi oğlu, dünya şöhrətli siyasətçi Heydər Əliyev məhz tarixi yaradan böyük, əvəzolunmaz şəxsiyyət idi. Müasir tariximizin 34 illik bütöv bir epoxası, bu illərdə xalqımızın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində inkişaf və dirçəlişi Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.

Bu gün müstəqil Azırbaycanın yaşaması dünyada qüdrətli bir ölkə kimi təşəkkülü üçün məhz Heydər Əliyevə borcluyuq. Ulu öndər Heydər Əliyev Azərbaycanın gələcək inkişaf strategiyasından danışarkən qeyd etmişdir: "Müstəqil Azərbaycan Respulikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənlərindən bəhrələnərək dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir". Ulu öndərimiz öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur.

1993-cü ilin iyunında Azərbaycanda baş verən məlum hadisələr böyük çətinliklər bahasına əldə etdiyimiz kövrək müstəqilliyimizi ciddi təhlükə altına salmışdı. Həmin dövrdə siyasi və iqtisadi böhranla üzləşmiş ölkəmizdə vəziyyət son dərəcə ağır və çıxılmaz idi. Azərbaycanın müstəqil bir dövlət kimi mövcudluğu şübhə altına düşmüşdü. Ölkədə xaos, özbaşınalıq, hakimiyyətsizlik hökm sürürdü, respublikamız dağılıb parçalanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir ağır, çıxılmaz vəziyyətdən cana gələn xalq ayağa qalxdı və özünün nicatını yalnız böyük siyasi xadim Heydər Əliyev də gördü, onu təkidlə Naxçıvandan Bakıya ölkə rəhbərliyinə dəvət etdi. Öz xalqının səsinə həmişə səs verən və onun taleyinə biganə qalmayan dahi rəhbər 1993-cü il iyunun 9-da Bakıya gəldi və iyunun 15-də Ali Sovetin sədri seçildi. Həmin gün müstəqil dövlətçilik tarixinin ikinci dövrü başlandı. Hakimiyyətə gələn ulu öndər Heydər Əliyev Azərbaycanı vətəndaş müharibəsi və parçalanma təhlükəsindən xilas etdi, dövlətçiliyimizə qarşı çıxan qeyri-qanuni silahlı qüvvələr zərərsizləşdirildi, dövlət çevrilişi cəhdlərinin qarşısı birdəfəlik alındı. Ölkəmizdə siyasi sabitlik bərqərar oldu.

1993-1995-ci illər müasir Azərbaycan tarixinə dövlət müstəqilliyinin qorunub saxlanması və dünya iqtisadiyyatına inteqrasiya dövrü kimi daxil oldu. Heydər Əliyev dövlət müstəqilliyindən danışarkən qeyd etmişdir: "Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra da onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcək".

Azərbaycanı parçalamaq və məhv olmaq təhlükəsindən xilas edən Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış yeni Konstitusiyamızın qəbulu, demokratik əsaslarla seçilmiş ilk parlamentimizin Azərbaycanın müasir tarixində tamamilə yeni səciyyəli bir mərhələnin başlanğıcı oldu. Ulu öndər tərəfindən islahatların hüquqi bazasının yaradılması, insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm tədbirlər həyata keçirildi. Bu gün Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması da ulu öndərimizin tarixi xidmətlərindəndir.

Dahi Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi

inkişaf strategiyasının əsas istiqamətlərindən biri də ölkənin nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi və yenidən qurulması olmuşdur. Onun həyata keçirdiyi nəqliyyat siyasətinin mərkəzində ölkə ərazisində beynəlxalq və tranzit dəhliz yollarının inkişafı olmuşdur. Azərbaycanın beynəlxalq nəqliyyat sisteminin güclənməsi üçün TRASEKA, Şimal-Cənub Proqram layihələri həyata keçirilib. Təməli Heydər Əliyev tərəfindən qoyulmuş nəqliyyat siyasəti bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illər ölkəmiz nəqliyyat sektorunda böyük uğurlara imza atıb. Bunlardan ən böyük layihə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin həyata vəsiqə almasıdır ki, bu istiqamətdə işlər sürətlə davam etdirilir. Respublikamızın nəqliyyat sisteminin əsas və aprıcı qollarından biri olan dəmiryolu nəqliyyatı hal-hazırda ən dinamik inkişaf mərhələsini yaşayır. Hazırda ölkənin polad magistralında ölkə başcısının tapşırıq və tövsiyələrinə uyğun olaraq yeniləşmə, müasirləşmə işləri uğurla reallaşdırılır ki, bu işdə "Azərbaycan Dəmir Yolları" QSC-nin rəhbərliyinin və cəmiyyətin sədri Cavid Qurbanovun əməyini, fəaliyyətini də qeyd etmək lazımdır.

Bu gün Azərbaycanın ən önəm verdiyi beynəlxalq nəqliyyat layihələrindən biri olan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin tikintisində işlərin sürətləndirilməsi üçün ölkə başcısı sərəncam imzalamışdır. Bir sözlə dəmir-yolu nəqliyyatında yenidənqurma işləri uğurla davam etdirilir.

**Vüsal SADIQOV,**
**ADY Xaçmaz Stansiyasının rəisi.**

# Yeni tarix yaradan Şəxsiyyət

**Bəşəriyyət tarixində zaman-zaman elə dahi şəxsiyyətlər olmuşdur ki, onlar öz xalqının taleyində əvəzsiz rol oynamış, onu dövrün çətin sınaqlarından müdrikliklə çıxarmış, dərin zəkası, dəmir iradəsi ilə ölkəsini intibaha, yüksəlişə aparmağa nail olmuşdur. Belə liderlər xalqı və vətəni naminə gördüyü misilsiz xidmətləri ilə yeni bir tarix yaratmışlar. Onların üzərinə bütöv bir xalqı, cəmiyyəti inkişafa, rifaha, sabitliyə, əmin-amanlığa aparmaq kimi tarixi missiya düşmüşdür. Tarixi yaradan belə şəxsiyyətlər bəşər sivilizasiyası durduqca yaşayacaqlar. Bu, dahi öndər Heydər Əliyevə də nəsib olan şərəfli taledir. Bu tarixi şəxsiyyətlərin sırasında bənzərsizliyi ilə seçilən ümummilli liderimiz Heydər Əliyev öz üzərinə düşən belə missiyanı yüksək məharət və məsuliyyətlə yerinə yetirmişdir. Ulu öndərimizin adı Azərbaycanın şərəf salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi əbədiləşmişdir.**

Ümummilli lider Heydər Əliyev ali liderlik keyfiyyətləri ilə dünyanın siyasi elitasının ən uca zirvəsində qərarlaşan nəhəng şəxsiyyət idi. O, təkcə öz ömrünün müdriklik zirvəsinə deyil, həm də bütöv bir xalqın tarixinin ən uca məqamına yüksəlməyi bacardı. Bu böyük tarixi şəxsiyyət yalnız öz dövrü üçün yaşamadı, milli-mənəvi dəyərlərimizi özümüzə qaytardı, gələcəyimizin yolunu manelərdən təmizləyib gur işıqlandırdı. O, xalqa və vətənə sonsuz sevgisi, dövlətçiliyə hədsiz sədaqəti ilə indiki və gələcək nəsillərə örnək ola biləcək bir fəaliyyət nümunəsi, ölkəmizin davamlı inkişafının uzunömürlüyünü təmin edən mükəmməl irs, siyasi məktəb qoyub getdi. Bütün mənalı ömrünü öz xalqının və Vətəninin inkişafı məqsədlərinə həsr edən ulu öndər Azərbaycanı dünyaya layiqincə tanıtdı. Müasir tariximizin 35 illik bir dövrü ərzində ulu öndərin Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatında oynadığı mühüm rola, ölkəmizin milli mənafeləri baxımından bənzərsiz fəaliyyətinə nəzər salarkən bir daha aydın olur ki, xalqımızın müasir tarixinə məhz bu insan yön və nizam verib. Ümummilli liderimizin siyasi müdrikliyi, fenomen yaddaşı, iti məntiqi, gərgin siyasi vəziyyətlərdən ustalıqla çıxmaq bacarığı, mürəkkəb siyasi situasiyalarda qərar vermək qabiliyyəti, uzaqgörənliyi, intellektual gücü, sərt və həm də qayğıkeş rəhbərlik xüsusiyyəti, cəmiyyətin siyasi, iqtisadi və mənəvi tarazlığını saxlamaq səriştəsi onun siyasi portretinin parlaq cizgiləri kimi təcəssüm olunmuşdur. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur.

Bu gün ümummilli lider Heydər Əliyev barədə danışmaq, fikir söyləmək şərəfli və eyni zamanda, çox məsuliyyətlidir. Hər ötən gün bizə onun necə uzaqgörən bir insan olduğunu, Azərbaycanın qarşıdakı onilliklər boyu yüksəliş yolunu necə zərgər dəqiqliyi ilə müəyyənləşdirdiyini bir daha təsdiqləyir. Heydər Əliyev həm də regionun şəriksiz lideri idi və dünyanın ən görkəmli dövlət xadimləri sırasında öz adını əbədi həkk etdirmişdir. Bütün dövrlərdə xalqımızın ali örnək kimi qəbul edəcəyi böyük vətəndaşı, qüdrətli lider timsalı olan Heydər Əliyev yalnız dövlətin tərəqqisi, müstəqil Azərbaycanın yaranması və tarixdə öz yerini əbədi möhkəmləndirməsi üçün yaşamışdır.

1969-cu ilin 14 iyulunda Azərbaycana rəhbər seçilməsi Heydər Əliyevin nadir liderlik xüsusiyyətinin, təşkilatçılıq məharətinin ali etirafı və təsdiqi olmaqla yanaşı, tezliklə milli intibahımızın bünövrəsinin qoyulması, müstəqillik düşüncəsinin dirçəldilməsi ilə əlamətdar oldu. Həmin dövrdə bu böyük siyasət dahisi özünü Azərbaycanın yüksəlişinə həsr edərək iqtisadiyyatın tərəqqisi, mədəniyyətin inkişafı, dövlət idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, xalqın tarixi yaddaşının yenilənməsi üçün əhəmiyyətli işlər görmüşdür. Xalqın gücünün və istedadının Azərbaycanın ümumi yüksəlişinə səfərbər olunması sayəsində həmin illərdə iqtisadiyyatın bütün sahələrində sıçrayış baş vermiş, respublikamız keçmiş ittifaq miqyasında qabaqcıl mövqelərə çıxa bilmişdi. Həmin dövrdəki sosial-iqtisadi yüksəliş, sənayenin və istehsalatın, elm və mədəniyyətin inkişafı, ümumən, ictimai-mənəvi ab-havanı səciyyələndirən bütün amillər, əslində, milli ruhun və qürurun oyanışına da güclü təkan vermişdi.

Heydər Əliyevin idarəçilik istedadı, tükənməz enerjisi və misilsiz işgüzarlığı 1982-ci ildən SSRİ-nin dövlət başçılarından biri kimi fəaliyyət göstərdiyi və irimiqyaslı layihələrə rəhbərlik etdiyi vaxtlarda da özünü xüsusilə parlaq surətdə təzahür etdirmişdi. Həmin dövrdə Heydər Əliyev fenomeni Ümumittifaq miqyasında etiraf olunurdu. O, ölkədə baş verən ekstremal vəziyyətlərin aradan qaldırılmasının bilavasitə təşəbbüskarı və rəhbəri olması ilə dövlətin ən nüfuzlu siyasi xadimlərindən birinə çevrilmişdi. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışdığı, Siyasi Büronun üzvü olduğu 1982-1987-ci illərdə də Heydər Əliyevin qəlbi Azərbaycanla, Vətənlə döyünmüşdü.

Tarix sübut etmişdir ki, Heydər Əliyev xalqa arxalandığı kimi, xalq da öz taleyini Heydər Əliyevə etibar edir, ona arxalanırdı. Bu inamın, etibarın nəticəsidir ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra ən ağır günlərində xalq yalnız onu axtarmış, ona pənah aparmışdı. Bu böhranlı məqamda yalnız Heydər Əliyev xalqının səsinə səs vermiş, xilaskarlıq missiyasını öz üzərinə götürərək, ölkəni müstəqilliyini yenidən itirmək təhlükəsindən xilas edərək Azərbaycanı sabit və inkişaf edən dövlətə çevirmişdi.

Təsadüfi deyil ki, ümummilli liderin 1993-cü ildə hakimiyyətə yenidən qayıdışı ilə milli birliyin təmin edildiyi 15 İyun gününü xalqımız öz ən yeni tarixinə xilaskarının şərəfinə Azərbaycanın Milli Qurtuluş Günü kimi yazmışdır. Həmin gündən etibarən ümummilli liderin Azərbaycana rəhbərliyinin ikinci dövrü - yeni missiyası başlanmışdır. Heydər Əliyev xalqımızın və dövlətçiliyimizin tarixində, əgər bir sözlə ifadə etmək mümkünsə, məhz xilaskar missiyasını yerinə yetirmişdir. Bəli, bu gün biz müstəqil Azərbaycan Respublikasının azad vətəndaşlarıyıq. Qədirbilən xalqımız ümummilli liderin bu tarixi xidmətini yüksək qiymətləndirir və onu heç vaxt unutmayacaqdır.

Tarixdə baş verən oxşar hadisələr dəfələrlə göstərmişdir ki, müstəqilliyi qoruyub saxlamaq, yaşatmaq onu qazanmaqdan qat-qat çətindir. Ümummilli lider Heydər Əliyevlə xalqın sarsılmaz birliyi bu sınaqlardan da uğurla çıxmağımızı təmin etmişdir. Heydər Əliyevin qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı və milli dövlət quruculuğu, sabitliyin təmin edilməsi prosesi vüsət aldı. Qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalət, demokratiya, hüquqi dövlət quruculuğu, dünyəvilik kimi ümummilli və ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu.

1995-ci ildə qəbul edilmiş və müəllifi məhz Heydər Əliyev olan ilk Konstitusiyamız hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunu, insan hüquqlarının üstünlüyünü və hakimiyyət bölgüsünü Azərbaycanın gələcək inkişaf yolu kimi müəyyənləşdirdi. Ölkədə sabitlik bərpa edildi, qanunçuluq möhkəmləndirildi.

Qarşıda duran mürəkkəb vəzifələrin həlli məqsədilə Heydər Əliyev təkcə düzgün daxili siyasət kursunu deyil, həm də onun davamı və tamamlanması olan uğurlu xarici siyasət strategiyasını müəyyənləşdirdi. Dövlətin xarici siyasəti, o cümlədən aparıcı ölkələr və beynəlxalq təşkilatlarla əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətt üzrə inkişaf etməyə başladı. Ümummilli lider Azərbaycanda demokratik inkişaf proseslərinin də əsasını qoydu. Ölkəmizdə şəxsiyyətin azadlığı və toxunulmazlığı, habelə onların hüquqi müdafiəsi təmin edildi. Çoxpartiyalı sistem üçün əsaslar yaradıldı, siyasi plüralizm, vicdan və etiqad azadlığı, azlıqların hüquqları, qanun qarşısında bərabərliyi təmin edildi.

Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra başlanan quruculuq müstəqilliyi əbədi, dönməz və sarsılmaz etdi və Azərbaycan dövlətinin davamlı yüksəlişi ilə nəticələndi. Bir sözlə, həmin dövrdə Azərbaycan böyük və mütərəqqi inkişaf yolu keçdi. O inkişafın davamı bu gün müstəqil Azərbaycanı dünya miqyasına qüdrətli ölkə kimi təqdim edir. Azərbaycan bu gün bölgədə və dünyada etibarlı tərəfdaş, dinamik inkişaf edən ölkə imicinə malikdir.

Ulu öndərin "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyib hakimiyyət sükanını etibar etdiyi Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. O, çağdaş tariximizə yeni missiya ilə daxil olmuşdur. Dövlətimizin başçısı çox qısa müddətdə Azərbaycanın inkişafına, beynəlxalq nüfuzunun yüksəlməsinə nail olmaqla, ölkəmizin ən yeni tarixinə qızıl hərflərlə yazılan uğurların müəllifidir. İlham Əliyevin rəhbərliyi altında Azərbaycan özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır.

Möhtərəm dövlət başçımızın timsalında hər bir Azərbaycan vətəndaşı ölkənin tərəqqisinin təminatçısını görür, bu böyük şəxsiyyəti qanunun və inkişafın qarantıdır. Fəaliyyəti ilə böyük rəğbət qazanan, cəmiyyətdən möhkəm dəstək alan, ənənə ilə novatorluğun, keçmişlə gələcəyin üzvi vəhdətinə nail olan bu insan ölkəsində şəriksiz liderdir. Müasir qloballaşma dövründə istənilən məsələ üzrə Azərbaycanın milli maraqlarının sadiq təminatçısı kimi çıxış edən Prezident İlham Əliyev ulu öndərin layiqli davamçısı olaraq, beynəlxalq miqyasda da ölkəmizin yeganə və alternativsiz lideri kimi qəbul edilir.

Müasir Azərbaycanın rəmzinə çevrilmiş Heydər Əliyevin özünəməxsus müdriklik və uzaqgörənliklə müəyyənləşdirdiyi dövlətçilik xəttinin uğurla, ardıcıllıqla davam etdirilməsi öz möhtəşəm bəhrələrini verməkdədir. Ölkəmiz ümummilli liderimizin başladığı inkişaf yolu ilə gedir və Azərbaycanda Heydər Əliyevin dövlətçilik amalı da uğurla yaşayır. Möhtərəm Prezidentimiz İlham Əliyev ümummilli liderimizin siyasi kursuna daim sadiq qalaraq, dahi rəhbərin müəyyən etdiyi inkişaf strategiyasını uğurla reallaşdıraraq müstəqil Azərbaycanımızı iqtisadi inkişaf tempinə görə dünyanın qabaqcıl dövlətləri sırasına çıxarmışdır. Artıq ölkəmiz regionun lider dövlətinə çevrilmiş, beynəlxalq aləmdə nüfuzu və qüdrəti xeyli artmışdır.

Prezident İlham Əliyevin qazandığı ümummilli etimad və beynəlxalq dəstək Heydər Əliyev siyasi irsinin böyük qələbəsi, ölkəmizin uğurlu gələcəyinin qarantıdır. Ulu öndər hər zaman deyirdi: "Həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Biz də fəxr edirik ki, ulu öndərimizin əmanəti olan, onun ideyalarını yaşadan, inkişaf etdirən, gündən-günə müasirləşdirən Azərbaycanın azad vətəndaşlarıyıq.

**Mahir MUSAYEV,**
**"Caspian Caterinq Service" şirkətinin direktoru.**